Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Modernizmin və absurd nəslin banisi

**Frans Kafkanın 135 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Lalə Qəmbərova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Modernizmin və absurd nəslin banisi:** Frans Kafkanın 135 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. L. Qəmbərova; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 25 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Tənqidçilər tərəfindən modernizmin və absurd nəslin banisi hesab edilən Frans Kafka (1883-1924) cəmi qırx bir il ömür yaşamasına baxmayaraq, dünya ədəbiyyatına ciddi təsir göstərmiş yazıçılardan biridir.

“Ədəbiyyata aid olmayan hər şey məni iyrəndirir”...- deyən, bütün ömrünü psixi sarsıntılar içində keçirmiş Frans Kafka söz sənətinə “Amerika” (1911-1916), “Məhkəmə”(1914-1918), “Qəsr” (1921-1922) kimi əvəzsiz romanlar, “Hökm” (1912), “Çevrilmə” (1912), “Akademiya üçün hesabat” (1917) kimi psixoloji novellalar bəxş etmişdir. Qəribədir ki, onun yazıldığı illərdə absurd adlandırılan əsərləri sonradan həqiqətən realist əsərlər kimi oxunmağa başlandı. Kafkanın əsərlərində yaratdığı o dibsiz çıxılmazlıq, bilinməzlik atmosferi sonradan sanki kitabları arasından süzülərək bütün dünyaya yayıldı.

Əsərləri ilə XX əsr dünya ədəbiyyatına böyük təsir göstərmiş Frans Kafkanın bu il 135 illik yubileyidir. Yazıçının yubileyi münasibətilə işlədiyimiz bu vəsait iki hissədən ibarətdir. I hissə “Giriş”, II hissə isə “Keçiriləcək tədbirlər” adlanır. I hissədə yazıçının həyat və yaradıcılığından, II hissədə isə yazıçının yubileyi ilə bağlı keçiriləcək tədbirlərdən söhbət açılır.

## Giriş

Frans Kafka 1883-cü il iyulun 3-də Praqada yəhudi ailəsində dünyaya gəlmişdir. Atası Herman Kafka Bohemiyanın cənubundakı balaca Vossek kəndində kasıb bir ailədə doğulmuş, ehtiyac, çətinliklər içində böyümüşdür. Sonralar Herman Kafka ağır zəhməti, işgüzarlığı sayəsində, eləcə də 1882-ci ildə evləndiyi nisbətən varlı Yuliya Lövinin gətirdiyi cehiz hesabına əvvəlcə bir xırdavat dükanı açmış, sonra onu böyük mağazaya çevirmiş, kiçik fabrik almış və beləliklə də, maddi çətinliklər məngənəsindən canını qurtara bilmişdi. Təbii ki, bu cür cəfakeşliyi, ağır zəhməti o, uşaqlarından, xüsusilə də böyük övladı Fransdan da tələb etmiş və ata ilə oğul arasında ziddiyyət də həmin vaxtdan başlamışdı. Çünki xisləti etibarilə çox qaba, ciddiliyi müstəbidliyə çatan atası son dərəcə həssas qəlbli, kövrək təbiətli çəlimsiz oğlunun bütün istək və arzularına qarşı çıxmış, onu öz iradəsinə tabe etdirməyə çalışmışdır. Xüsusilə, atasının onu "heç nə" hesab etməsi, ədəbiyyata, yazmaq meylinə rişxəndlə yanaşması, oğlunun ilk kitabı çıxarkən onun sevincini bölüşməməsi, kart oynaya-oynaya başını qaldırmadan "apar, tumbanın üstünə qoy"- deməsi, gənc yaşlarında özünün o dövr üçün sağalmaz xəstəlik hesab olunan vərəmə tutulması və nəhayət, uğursuz şəxsi həyatı, heç şübhəsiz ki, onun yaradıcılıq ovqatı və istiqamətinin müəyyənləşməsində mühüm rol oynamışdır. Sonralar Kafka bu münasibətləri, necə deyərlər, həyat faciəsini 1919-cu ilin noyabrında yazmış olduğu, lakin heç vaxt ünvanına göndərmədiyi məşhur "Atama məktub"unda həm şəxsi, həm də sosial-psixoloji aspektdə bütün çılpaqlığı ilə təsvir etmişdir. Sırf avtobioqrafik səciyyə daşısa da, bu məktubu, əslində, şəxsi münasibətlər çərçivəsini aşaraq bəşəri dəyərlər baxımından, ümumiyyətlə, insan münasibətlərinin təhlil və

qiymətləndirilməsinə həsr edilmiş bitkin bir əsər hesab etmək olar.

Əvvəlcə xalq məktəbində, sonra da Alman Gimnaziyasında oxuyan Kafka 1901-ci ildə Praqa Universitetinin hüquq fakültəsinə daxil olmuş, oranı 1906-cı ildə bitirərək hüquq elmləri sahəsində uğurla dissertasiya müdafiə etmişdir. 1907-1908-ci illərdə "Assicurazioni Generali" sığorta cəmiyyətində təcrübə keçən Kafka daha sonra İstehsalat Qəzasına Düşənlərin Sığortası Cəmiyyətində 1922-ci ilə qədər, yəni xəstəliyi ilə əlaqədar təqaüdə göndərildiyi vaxta qədər məmur vəzifəsində işləmişdir.

Frans Kafka uzun sürən ağır xəstəlikdən sonra 1924-cü il iyunun 3-də vəfat etmiş və Praqadakı yəhudi qəbiristanlığında dəfn olunmuşdur.

Kafkaşünaslar onun yaradıcılığını üç dövrə bölürlər ( ilkin dövr – 1912-ci ilə qədər, yetkinlik dövrü – 1912- 1917 20, sonrakı dövr – 1921- 1924) və bu bölgünün də əsasında, heç şübhəsiz ki, yazıçının həyatında baş verən dəyişiklik və təbəddülatlar durur. Xüsusilə, 1912-ci ildə, eləcə də 1917-ci ildə baş verən hadisələr onun yalnız şəxsi həyatında deyil, yaradıcılığında da həlledici rol oynamışdır.

Kafkanın yaradıcılığının ilk dövrünə "uşaqlıq əməlləri" və "mənasız cızmaqaralar" hesab edərək, elə o vaxtlar yandırdığı hekayələr nəzərə alınmazsa, "Bir savaşın təsviri" novellasını (1904/05), "Kənddə toya hazırlıq" (1906/07) roman fraqmentini, məktublarındakı bir neçə şeiri, 1909-cu ildən yazmağa başladığı "Gündəliklər" ini və "Müşahidə" adlı topluya daxil edilmiş on səkkizə qədər kiçik nəsr nümunələrini, eləcə də müxtəlif qəzet-jurnallarda çap olunmuş xırda yazılarını aid etmək olar. Bu ilk qələm təcrübələrində ən çox diqqəti çəkən onun özünəməxsus dil və üslub xüsusiyyətlərinin sürətlə formalaşmasıdır. Daha dəqiq desək, əsərlərinin çex dilinə

tərcüməçisi, sonralar da növbəti uğursuz məhəbbəti olan çex jurnalisti Milena Yessenskayanın yazdığı kimi, onun "...hamıdan fərqli olaraq, həyata başqa cür baxması... pulun, birjanın, valyuta mübadiləsi məntəqəsinin, makinanın mistik məna daşıması, hamısının tapmacaya çevrilməsi,... onun özünün geyimli-keçimli insanlar arasında lüt-üryan qalmış bir məxluq" olmasıdır. Mövzulara gəldikdə isə onu demək olar ki, hər cür təbiət təsvirindən, məcazlardan, patetikadan qaçan gənc Kafkanı düşündürən problem şəxsiyyətin cəmiyyətə, eyni zamanda da özünə münasibəti olmuşdur.

Heç şübhəsiz ki, Kafka yaradıcılığının özünəməxsusluğu, orijinallığı, bir sözlə, bütün böyüklüyü onun yaradıcılığının ikinci dövründə üzə çıxmışdır. Artıq qeyd olunduğu kimi, 1912-ci il yazıçının istər şəxsi həyatında, istərsə də yaradıcılığında dönüş nöqtəsi hesab olunur. Kafka yenicə başa düşür ki, "uzaq-uzaq ölkələrdə yaşamaq, kreslolarda oturub gözəl-gözəl binalara, müsəlman qəbiristanlığına tamaşa etmək" kimi arazularından birdəfəlik əl çəkməli, öz həyatını həmişə nifrət etdiyi bu gerçəklikdə qurmalıdır. Üstəlik də, yenicə tanış olduğu Felitse Bauerə qarşı olan hisslərinin ziddiyyətləri onu sıxmağa başlayırdı. Ədəbiyyata son dərəcə bağlı olan "ədəbiyyatla bağlı olmayan hər şeyə nifrət edən" Kafka, Felitse ilə gələcək ailə həyatının onun sevimli məşğuliyyətinə mane olacağından, həm də "cismani məhəbbət" in onun bütün ülvi hisslərini məhv edəcəyindən qorxur, şübhə - tərəddüdlər içində boğulmağa başlayırdı. Deməli, ikinci dövrdə yaranmış bütün əsərlər məhz bu cür mənəvi-ruhani, psixoloji depressiyaların, bədbinliyin, qorxu və ümidsizlik hisslərinin təsiri altında yazılmışdır. Düzdür, "Amerika" romanının bir fəsli olan "Ocaqçı" da həmin dövrdə yaranmışdır, lakin tərəddüd etmədən demək olar ki, bu dövrün şah əsərləri "Hökm" və "Çevrilmə" novellalarıdır. 1912-ci il sentyabr ayının 22-dən 23-nə keçən

gecə birnəfəsə, biroturuma, beşcə saata yazdığı "Hökm" novellasını Kafka özünün yeganə uğurlu əsəri hesab etmişdir. Novellanın qəhrəmanı Georq Bendeman ticarətlə məşğul olsa da, əslində, bu əsər şəxsi faciədən Kafkanın özünün düşdüyü çıxılmaz vəziyyətdən bəhs edir: ata ilə düşmənçilik, fərqli düşüncə tərzi, oğlun nişanlanması, gələcəyə olan kövrək ümidlər və zorakı sonluq... Belə bir sonluq, şübhəsiz ki, Kafkanın özünün "iyrənc" hesab elədiyi bu novellanı əksər tədqiqatçılar fərdlə, subyektlə xarici aləmin, onun yaşadığı mühitin münasibətlərinin uydurma, keçici olmasına həsr olunmuş uğurlu əsəri kimi qiymətləndirilir. Əgər hər hansı təsadüf nəticəsində bu münasibətlər zəifləyirsə, deməli, insan cəmiyyətdən də, ailədən də kənara atılır, tək qalır, özgələşir. Ən dəhşətlisi də odur ki, insan düşdüyü bu vəziyyəti, onu əhatə edən mühiti, şəraiti dəyişməyə acizdir, gücsüzdür.

Yaradıcılığının bu dövründə Kafkanı düşündürən məsələlərdən biri də Xeyir-Şər qarşıdurması, onların əzəli və əbədi mübarizəsi olmuşdur. Həmin vaxt Vaqner fəlsəfəsinin təsiri altında olan gənc yazıçı insanların instinktlər tərəfindən idarə olunduğuna inanmış, onların həmişə xaos, şər qüvvələr tərəfindən təqib olunduğunu düşünmüşdür. Onun fikrincə, bəşər övladı yarandığı gündən yaşadığı cəmiyyətdə azadlıq, bərabərlik üçün mübarizə aparsa da, həmişə məğlubiyyətlə barışmalı olmuşdur, çünki o, nəyisə dəyişməyə qadir deyil. Şər qüvvələrin insan üzərindəki əzəli və əbədi ağalığı, onlara qarşı aparılan mübarizənin mənasızlığı, bu mübarizənin daha ağır nəticələrə gətirib çıxarması ideyasını Kafka özünün 1914-cü ildə yazdığı "Cəza koloniyası" novellasında bədii cəhətdən əsaslandırmağa çalışmışdır.

Bütün bunlarla bərabər, "Amerika" və "Məhkəmə" romanları Kafka yaradıcılığının ikinci dövrünün zirvəsi hesab olunur. Hər iki roman yazıçının dünyabaxışı, insan-cəmiyyət probleminə

münasibəti, gerçəkliklə fantaziyanın sintezi baxımından çox səciyyəvidir. Bir sıra əsərləri kimi sona çatdırmadığı "Amerika" romanını Kafka, özünün etiraf etdiyi kimi, Ç.Dikkensin, ən çox da onun "Devid Kopperfeld" romanının təsiri altında yazmışdır və burada son dərəcə sadəlövh, həssas, ürəyiyumşaq gənc olan Karl Rosmanın başına gələn qeyri-adi sərgüzəştlər təsvir olunur. Məlum olur ki, eybəcər qulluqçu qız oğlanı "yoldan çıxarıb", ondan uşağa qalıb və buna görə də valideynləri onu lənətləyərək evdən qovublar. Beləliklə, on altı yaşlı Karl pulsuz-parasız, cırıq bir çamadanla Amerikaya gəlir və burada ziddiyyətlərlə, təzadlarla dolu bir aləmdə, müxtəlif tip insanların arasında həm gerçək, həm də müxtəlif tip insanların arasında həm gerçək, həm də fantastik yaşantılarla öz mövcudluğunu təsdiq etməyə çalışır. Lakin Dikkensin qəhrəmanı öz ağlı, fərasəti ilə həyatın bütün çətinliklərinə mətanətlə sinə gərərək, cəmiyyətin dəyərli bir üzvünə çevrildiyi halda, Kafkanın qəhrəmanı, Devidin tam əksinə olaraq, təsvir olunan keşməkeşli həyatın burulğanından çıxa bilmir, özü də onun nəcib, ülvi, xeyirxah arzu və xəyalları real qüvvələr deyil, gizli, anlaşılmaz, qarşısıalınmaz mistik qüvvələr qarşısında aciz qalaraq məhv olur. "Dünya ədəbiyyatı tarixində müasir sənayeləşmiş bir cəmiyyəti bütün çılpaqlığı ilə göstərən əsər" hesab olunan "Amerika" romanında da Kafka Karl – cəmiyyət qarşılaşmasında, əslində, insanların daim bir-birinə qarşı durmasını, onları heç vaxt bir-birini anlamadığını, ümumiyyətlə, insan həyatının harmoniyadan uzaq olduğunu ön plana çəkmişdir.

1917-ci ildə üzə çıxan vərəm xəstəliyi getdikcə ağırlaşmağa başlayır və onsuz da kövrək, bədbin olan Kafkanı istər şəxsi həyatında, istərsə də bədii yaradıcılığında böyük çətinliklər qarşısında qoyur. Həmin ilin dekabrında nişanlısı Felitse Bauerlə, necə deyərlər, biryolluq üzülüşən yazıçı qaynar şəhər həyatından, iztirab və sıxıntılardan uzaqlaşmaq üçün bir müddət

kənddə bacısı Ottlanın yanında yaşayır, mütaliə ilə məşğul olur, ən çox da dini, mifoloji mövzulara müraciət edir və yaradıcılığının ikinci dövrünün son illərində yazdığı "Aforizmlər" də dostu və yazıçının ölümündən sonra onun bütün bədii irsini çap etdirən Maks Brodun dediyi kimi, "günah, iztirab, ümid, həqiqətə aparan yol" haqqındakı fikirlərini ifadə etmişdir. Bütün bu anlayışlara münasibətdə də Kafka duyumu, Kafka baxışı paradoksal səciyyə daşıyır. Məsələn, "İncil"in ruhuna uyğun yaranmış məşhur "Axtaran tapar" atalar sözü Kafka yozumunda tamamilə əks məna daşıyır: "Axtaran tapmaz, axtarmayan tapılar".

1919-cu ildə çox sakit təbiətli, kasıb çəkməçi qızı Yuliya Vovrjekdə tanış olan Kafka "ən böyük nemət" hesab elədiyi ailə qurmaq planını yenidən həyata keçirmək istəyir, lakin bu dəfə də atası artıq otuz altı yaşına çatmış oğlunu başa düşmür, bu qızın öz ailələrinə bab olmadığını əsas gətirərək, "Yəqin, qəşəng bir kofta geyinib...Praqadakı yəhudi qızları belə şeyləri yaxşı bacarırlar...Sən də qərara alıbsan ki, onunla evlənəsən!"- deyə onun saf və eyni zamanda, məşum hisslərini təhqir edir.

Kafkanın həyatının son illəri, eləcə də bədii yaradıcılığının üçüncü dövrü yenə də sarsıntılar, şübhə tərəddüdlər içində keçsə də, özünü artıq "ölmüş hesab eləsə" də, vaxtının çoxunu sanatoriyalarda, müalicəxanalarda keçirməli olsa da, dünya şöhrətli "Qəsr" romanını, eləcə də "Bir itin araşdırmaları", "Yuva", "Balaca qadın", "Müğənni Jozefina" və s. kimi oxucusunu sehrləyən novellalarını yazmaq üçün özündə fiziki və mənəvi güc tapa bilmişdir.

Frans Kafka çox mürəkkəb, ziddiyyətlərlə dolu bir tarixi zaman kəsiyində yaşayıb yaratmışdır. Günbəgün artan narazılıqlar, üsyanlar, inqilablar, müharibələr və bir də təbəəsi olduğu Avstriya-Macarıstan İmperiyasının süqutu... Heç şübhəsiz ki, Kafka, zəmanəsindəki təzadlı olaylara biganə

qalmamışdır və şahidlərin, dostlarının yazdığına görə, dövrünün bir sıra ictimai-siyasi hadisələrinə müəyyən maraq göstərmiş, hətta müxtəlif yönümlü siyasi yığıncaqlarda da iştirak etmişdir. Lakin bütün bunlarla bərabər, “siyasi yönümlü” yazıçı olmamış, istər tarixdə, istərsə də zəmanəsində baş verən olayların ümumiləşdirilmiş epik və ya lirik təsvirinə can atmamışdır. Onun üçün bircə “siyasət” olmuşdur: yarandığı gündən varlığı uğrunda mübarizə aparan, min cür əzab-əziyyətə, iztirablara, çətinliklərə məhkum olan İnsan taleyi. Haqqında nə qədər müxtəlif fikirlər söylənsə də, hamı etiraf edir ki, onun yaradıcılığının müəmmalarla dolu ideya-məzmun xüsusiyyətləri, bütün ziddiyyətlərinə baxmayaraq, həqiqət axtarışı olmuşdur, daha doğrusu, “Kafka realist olmamışdır, ancaq bununla bərabər, o imkanları daxilində həqiqət axtaran bir sənətkar kimi qiymətləndirilməlidir”...

## Keçiriləcək tədbirlər

Ötən əsrin ən böyük sənətkarlarından sayılan Frans Kafkanı bütün ədəbiyyatşünaslar müasir modernizmin yaradıcısı kimi qiymətləndirsələr də, son dərəcə orijinal yaradıcılıq üslubuna malik olmuş bu yazıçının haqqında heç vaxt vahid rəydə, eyni fikirdə olmamışlar. Belə ki, hər bir ədəbi məktəb, hər bir ideoloji yönüm onu özününkü hesab etmiş və bu da təbii ki, onun haqqında müxtəlif əfsanələrin, uydurmaların yaranmasına səbəb olmuşdur. Qəribə də olsa, bu uydurmalar, əfsanələr əsassız deyildi, çünki özünəməxsus yazı tərzi, qeyri-adi yaradıcılıq manerası Kafkanı “vizioner”, “freydist”, “sürrealist”, “xəyali realist” hesab edənlərə bu fikrə gəlmək üçün kifayət qədər əsas və material verirdi. Bu o deməkdir ki, Kafkanın yaradıcılığı o qədər çoxcəhətli, o qədər çoxşahəli olmuşdur ki, onu hər hansı

bir ədəbi cərəyanın, fəlsəfi fikrin, ideoloji dünyagörüşünün çərçivəsinə salmaq mümkün olmamışdır.

Yaşadığı dövrdə Kafka yazıçı kimi tanınmamışdı. Əgər o yazdıqları mətnləri gizlətməyib açıq çap etdirsəydi, bunun necə qarşılanacağı indi sual altındadır. Kafkanın öz yazdıqları əsərlərə qarşı şübhəsi o dərəcədə idi ki, ölüm qabağı bütün əsərlərinin məhv edilməsini vəsiyyət etmişdi. Kafkanın ölümündən sonra tapılmış məktubda yazılıb: "Hər şeydən əvvəl mənim yazdıqlarım arasında əsas olanlar "Hökm", "Çevrilmə", "Cəza koloniyası", "Kənd həkimi" və "Ac sənətçi" sayılırlar (Baxış kitabının bir neçə nüsxəsi qala bilər, mən heç kimə zəhmət verməк istəmirəm, amma yeni nəşri olmamalıdır)". Kafkanın ölümündən sonra dostu Maks Brod onun əsərlərini yazıçının vəsiyyətinin əksinə olaraq çap etdirmişdir.

Frans Kafkanın 135 illik yubileyi ilə əlaqədar olaraq, kitabxanalarda bir sıra yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Tədbiri keçirmək üçün kitabxana məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgini müxtəlif başlıqlarla adlandırmaq olar: “Modernizmin banisi Frans Kafka”, “Bəşəriyyətin müəllimi Frans Kafka”, “XX əsr dünya ədəbiyyatının ən görkəmli nümayəndəsi”, “Xəyali realist”, “Frans Kafka – 135” və s.

# Kitab sərgisi


















## Görkəmli şəxsiyyətlər Frans Kafka haqqında

…Ədəbiyyatda ümumi məqam fundamental absurdu və insan taleyinin kəmfürsət dərəcədə qəlizliyini təsdiqləməkdir. Bir-birini inkar edən cəhətlər üst-üstə düşür və hər ikisi elə bir gülünc ziddiyyət üstündə zühur edir ki, qəlbimizin böyüklüyünü bədənin fani sevinclərindən ayırır. Absurd olan odur ki, qəlb bu bədənə məxsusdur, ondan sonsuz dərəcədə böyük olan bir nəsnə. Bu absurdu ifadə etmək istəyən şəxs bir-birini dəf edən cəhətlərin oyunu vasitəsilə ona həyat bəxş etməlidir. Kafka gündəlik hadisələrin primasından faciəni, məntiq vasitəsiylə absurdu məhz belə ifadə edirdi.

**Albert Kamü,**
*fransız yazıçısı*

…“Məhkəmə” romanında söhbət, müttəhimin məhkəmədə dindirildiyi hansısa günahdan, yaxud günaha batmaqdan getmir, burada söhbət ümumən həyatda insanın daşıdığı əbədi günah hissindən gedir, bunu yumaq qeyri-mümkündür.

**Herman Hesse,**
*alman-isveçrə yazıçısı*

Frans Kafka "XX əsrin Dantesi" dir.

**Uisten Oden,**
*amerikalı şair*

Frans Kafka XX əsrin ən böyük yazıçılarından biridir.

**Vladimir Nabokov,**
*amerikalı yazıçı*

Bir gün XX əsr “Kafka əsri” adlanacaq.

**Maks Brod,**
*yəhudi yazıçısı*

Kitabxanada Frans Kafkanın yubileyi münasibətilə, həmçinin onun yaradıcılığını oxuculara daha yaxından tanıtmaq məqsədilə yazıçının ***əsərlərinin təhlilini*** keçirmək məqsədəuyğundur. Bunun üçün kitabxanada yazıçının kitablarından ibarət sərgi təşkil olunur. İştirakçılar sərgi ilə tanış olduqdan sonra, oxucular əsərlərin təhlilini edirlər.

**I oxucu:** Frans Kafka tərəfindən 1912-ci yazılmış “Hökm” novellası şəxsi faciədən, müəllifin məruz qaldığı çıxılmaz durumdan bəhs edir. Burada oğulun evlənmə mərasimi ilə əlaqədar olaraq ata-oğul konflikti təsvir edilmişdir (təsadüfi deyil ki, Kafka bu əsəri nişanlısı Felitsa Baure ithaf edib). Uğurlu, gənc bir ticarətçi oğlan atası tərəfindən qəbul edilmir. Ata oğluna ölüm hökmü verir və onu həqiqətən yerinə yetirir.

Hekayənin əsas qəhrəmanı Qeorq Bendman bir ticarətçi oğludur. O nişanlıdır və dostu ilə Peterburqda çalışır. Bunu gizlətmək üçün o məktublarda öz həyatı haqqında çox şeyi yazmır. Uzun sürən fikirləşmədən sonra o, qarşıda duran toyu haqqında danışmaq qərarına gəlir. Qeorq məktubla atasının yanına getdikdə disput baş verir. Atası ilə mübahisə zamanı ona məlum olur ki, atası Peterburqda yaşayan dostu ilə əlaqəyə girib və onun haqqında olanları artıq öyrənib. Atası ona şər atır ki, o Peterburqdakı işin idarəçiliyini başı-başına buraxıb. Disput atanın bu sözləri ilə qurtarır: "Mən sənə suda boğulmaqla ölmək hökmünü verirəm!". Bu sözlərdən sonra oğul evdən qaçır və çaya yıxılaraq həlak olur.

Ata ilə düşmənçilik, Oğulun nişanlanması və bununla bağlı ümidlər, zorakı sonluq. Bu cür sonluq Kafkanın şürunda öz işartısını daim göstərib. Xəstə ata Georqa ölüm hökmü kəsir, o

da tərəddüd etmədən özünü çaya atır. Oğul o səbəbdən cəzaya məhkum edilir ki, o evlənmək, bununla da nəslin başçısını patriarx hüququndan məhrum etmək fikrinə düşüb. Ancaq çıxarılan hökmün gözlənilməz motivi də var: Ata – Peterburqda qərar tutan, həyatda və işgüzar mühitdə bəxti gətirməyən Dostun tərəfini saxlayır. Burada Dost – Kafkanın mənəvi dünyasını, Georq isə Kafkanın simasında atasının görmək istədiyi "şəhərli oğul" obrazını təcəssüm etdirir.

**II oxucu:** Frans Kafkanın yaradıcılığında mühüm yerlərdən birini də 1915-ci ildə yazdığı "Çevrilmə" novellası tutur. Bu əsərdə müəllif fantastik bir mövzuda çıxış edir. Hekayənin baş qəhrəmanı Qreqor Zamza bir gün səhər yuxudan ayılanda özünün böyük bir eybəcər həşərata çevrildiyini görür. Kafka, manerasına uyğun olaraq hadisələrin əvvəlində baş verənlərin metamorfozasını açıqlamır. Oxucu və hekayənin qəhrəmanı fakt qarşısında qoyulur: Çevrilmə baş vermişdir. Baş qəhrəman olanları anlayır və dərk edir. Qapının o tərəfində onun atası, anası və bacısı səhər qalxmağı xahiş etslər də, o bu qeyri-adi vəziyyətdə ayağa dura bilmir. Onun çevrilməsini bilən ailə üzvləri dəhşətə gəlirlər. Atası onu otağa qovur, bu zaman atasının atdığı əşya ilə Qreqor ağır yaralanır. Bu vəziyyətdə o, otaqda həmişəlik qalmalı olur. Ancaq bacısı ona yemək vermək üçün hərdən otağa gəlir. Qreqor otaqda ağır mənəvi fiziki vəziyyətdə yaşamalı olur. O ailədə yeganə pul qazanan şəxs idi. İndi onun bu vəziyyətə düşməsi ilə əlaqədar olaraq ailə maliyyə baxımdan pis vəziyyətə düşür. Baş verənlərə görə Qreqor özünü günahkar hesab edir. Əvəldə bacısının ona yazığı gəlir. Ancaq evə kirayəçi qoyandan sonra bu həşəratın qonaqların qarşısında özünü pis aparması nəticəsində onun da Qreqora münasibəti dəyişir. Kirayəçilər evdə həşəratı görüb hay-küy qaldırır və evi tərk edirlər. Bir müddətdən sonra Qreqor ölür, onu bir qutuda

dəfn edirlər və çılğın hekayə həyat dolu optimistik sonluqla başa çatır.

"Çevrilmə" novellası metafora baxımından zəngin və çoxmənalı əsərdir: burada az qala, hər cümləni yüz yerə yozub yüz nəticə çıxarmaq mümkündür. Ancaq bir məsələ tam şübhəsizdir: itaətkar oğulu – üzüyola qulluqçunu əcaib həşərata çevirib onu doğma ailə mühitinə atmaqla Kafka biganəliyin, fərdin faciəvi və sonsuz tənhalığının gerçək surətini yaratmışdır.

**III oxucu:** "Qəsr" (1922) romanında da təsvir olunan hadisə, Kafkanın başqa əsərlərində olduğu kimi, müəmmalarla doludur. Qarlı bir gündə kəndə gəlib çatan K. yerölçən adı ilə Qəsrə yol tapmağa çalışır, indiyə qədər heç kəsin görə bilmədiyi qrafdan bu kənddə qalıb yaşamağa icazə almaq, öz şəxsi həyatını istədiyi kimi qurmaq istəyir. Lakin burada hökm sürən sirli qanunlar, insanların bir-birinə münasibəti, nəhayət, bürokratiya ora aparan bütün yolları K.nın üzünə bağlayır. Düzdür, K. özü də başa düşür ki, kənddə onun yerölçən kimi buraya dəvət olunmadığını bilirlər, lakin "ruhdan düşmür" və beləliklə də, Qəsrlə qeyri-adi, müəmmalı bir oyuna girir, heç bir çıxış yolu olmayan labirintə düşür, son nəticədə də, Kafkanın digər qəhrəmanları kimi müəmmalarla dolu "qanunlar" qarşısında aciz qalır, arzuladığı "şəxsi səadətinə" nə qovuşa bilmir, insanları daim ümidsizlik, qorxu, çaşqınlıq məngənəsində sıxan gerçəkliyə uduzur, bununla da, dostu M.Brodun dediyi kimi, "Tənhalıq trilogiyası "Qəsrlə" lə sona çatır".

Kitabxanada sevilən tədbirlərdən biri də kitabxanaçının *sərgi ətrafında oxucularla keçirdiyi söhbətdir*. Kitabxanaçı bu söhbətdə oxuculara yazıçının Azərbaycanca çap olunmuş kitabları, əsərləri haqqında məlumat verə bilər.

**Kitabxanaçı:** Frans Kafkanın əsərləri kitab halında 2006-cı ildə "Seçilmiş əsərləri"ində toplanır. Topluda Kafkanın "Çevrilmə", "Kənd həkimi", "Balaca qadın", "Müğənni Jozefina" və "Akademiya üçün hesabat" hekayələri və "Qəsr" romanı yer alıb. Bu, 1996-cı ildə çap olunan kitab əsasında hazırlanıb və "Şərq-Qərb" nəşriyyatında çap olunub.







Frans Kafkanın "Seçilmiş əsərləri" növbəti dəfə 2010-cu ildə yenə "Şərq-Qərb" nəşriyyatında çap olunub. Bura 3 tərcüməçinin – Çərkəz Qurbanlı, Vilayət Hacıyev və Yusif Savalanın alman dilindən tərcümələri daxil edilib. Ümumilikdə isə kitabda Kafkanın 17 hekayəsi, 7 pritçası, "Qəsr" romanı və "Atama məktub"u yer alıb.

2012-ci ildə Vilayət Hacıyevin tərcümə etdiyi "Məhkəmə" romanı "Qanun" nəşriyyatında çapdan çıxıb. 2013-cü ildə isə bu roman yenidən nəşr olunub.










2014-cü ildə isə yazıçının daha bir toplusu – "Vəsiyyət" çapdan çıxıb. Kitab Mahir.N. Qarayev tərəfindən ruscadan tərcümə edilmişdir. Kitaba yazıçının "Hökm" və "Çevrilmə" novellaları, pritçalarından nümunələr, "Gündəliklər" indən və çex jurnalisti Qustav Yanouxla söhbətlərindən parçalar daxil edilib. Kitab "Qanun" nəşriyyatı tərəfindən çap edilib.




Bu kitaba Frans Kafkanın aşiq olduğu çex jurnalisti Milena Yesenskayaya 1920-1923-cü illər ərzində yazdığı məktubları daxil edilib. Kafka Milenaın ona yazdığı məktubları saxlamasa da Milena hamısını saxlayıb və 1939-cu ildə çap etmək üçün məktubları dostu Uill Haasa verib. Lakin bu, İkinci Dünya müharibəsi ərəfəsinə təsadüf etdiyindən onların çapı ləngiyib. Məktubların kitab halında çapı yalnız 1952-ci ildə mümkün olub. "Qanun" nəşriyyatının 2015-ci ildə çap etdiyi kitabı rus dilindən Həbib Həbiboğlu tərcümə edib.




F.Kafkanın 2015-ci ildə Azərbaycan dilində çap olunan növbəti kitabı "Atama məktub" adı verilən hekayələr toplusudur. Yenə "Qanun" nəşriyyatının çap etdiyi topluya müəllifin "Ocaqçı", "Yaşı ötmüş subay Blümfeld", "Yuva", "Bədbəxtlik", "Ölülərin qonağı", "Qardaş qətli", "İmtahan", "Tacir", "Qaçış", "Dönüş", "Qonşu", "Qəribə heyvan" hekayə və pritçaları daxildir. Kitabdakı hekayələri alman dilindən Vilayət Hacıyev tərcümə edib.

Kitabxanada yuxarı sinif şagirdlərinin iştirakı ilə Frans Kafkanın əsərlərinə çəkilən ***filmlərin nümayişi*** də keçirilə bilər. Frans Kafkanın iki romanı – "Qəsr" və "Məhkəmə" əsasında filmlər çəkilib. "Çevrilmə", "Kənd həkimi" və "Gemeinschaft" hekayələri əsasında isə həm film, həm də animasiyalar çəkilib. "Qəsr" romanına isə 1968 və 1997-ci illərdə film çəkilib. Şagirdlərin istəyini də nəzərə alaraq, kitabxanada bu filmlərin bir neçəsinin nümayişi təşkil oluna bilər.

Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də ***müsabiqələrdir***. Müsabiqə zamanı uşaqlar tərəfindən Frans

Kafkanın əsərlərinə illüstrasiyalar çəkilməsi tapşırılır. Şəkillərin hazırlanması üçün uşaqlara bir həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Kafkanın əsərlərini oxuyur, həm də oxuduqları və ən çox bəyəndikləri əsərə illüstrasiyalar çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır.

Müsabiqə zamanı Frans Kafkanın çəkdiyi rəsm əsərlərinin də sərgisini təşkil etmək olar. O, rəsm çəkmək bacarığının olduğunu Felice Bauerə yazdığı məktublarda etiraf edib: “Bir vaxtlar çox yaxşı rəssam idim. Ancaq daha sonra zəif bir müəllimin yanında məktəb səviyyəsində rəsm çəkməyi öyrənməyə başladım və bütün istedadımı itirdim. Üstündən illər keçən bu rəsmlərim o vaxt məni hər şeydən daha çox qane eləmişdi”.

*Frans Kafkanın rəsm əsərləri*



Mütəfəkkir



Başı masada olan adam



Barmaqlıqlar arasında kişi



Qılıncoynadan



Əsalı adam



Güzgü qarşısında dayanan adam

Kitabxanada başqa müsabiqələrin də təşkili mümkündür. Məsələn, yuxarı sinif şagirdləri ifasında Frans Kafkanın sevilən ***əsərləri səhnələşdirilərək*** münsiflərə təqdim olunur. Münsiflər heyəti kitabxana müdiri və teatrımızın görkəmli nümayəndələri ola bilər. Əsəri ən gözəl səhnələşdirən uşaqlardan ibarət komanda mükafatlandırılır.

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi ***kitab müzakirəsi*** də keçirilə bilər. Bu zaman kitabxanaçı Frans Kafkanın sevilən əsərlərinin kitabını müzakirə edə bilər. Kitabxanaçı əvvəlcə "Atama məktub" kitabı, sonra "Məhkəmə" romanı haqqında məlumat verir.

**Kitabxanaçı:** *"Atama məktub"* Frans Kafka tərəfindən 1919-cu ildə atasına yazılmış, ancaq göndərilməmiş məktubdur. Məktub onun vəfatından sonra Maks Brod tərəfindən çap etdirilmişdir. Məktubun mətni Kafkanın şəxsi həyatına toxunur və bununla onun haqqında psixoanalitik və bioqrafik araşdırmalar üçün əsas sayılır.

1919-cu ilin yanvarında Kafka Şlesendəki kurortda müalicə olunan zaman Yuliya Voriçek ilə tanış olur və bir neçə ay sonra onunla nişanlanır. Buna Kafkanın atası pis münasibət bəsləyir. Güman edilir ki, bu, Kafkanın atasına belə uzun məktub yazmağa məcbur etmişdir. Məktub 10-13 noyabr 1919-cu ildə yazılmışdır. Kafkanın toyu noyabr ayına təyin edilsə də, baş tutmur. Səbəb kimi guya mənzil problemi göstərilir.

Yüz səhifəlik əlyazmasından ibarət bu məktubda Kafka atası ilə konflikti çözməyə çalışır. Bu münasibətdəki problemləri o, atası ilə mənəvi cəhətdən uyğunsuzluqla əlaqələndirir. Məktubun sonunda o ümid edir ki, bundan sonra onların hər ikisi də müəyyən qədər sakitləşəcək, yaşam və ölüm asanlaşacaqdır.

Kafkanın atasına yazdığı məktub atası, özü və cüzi şəkildə qeyd edilən anasına toxunan çətin ədəbi dildə yazılmış şikayət və müdafiə mətnidir. Kafka ata-oğul mətnini böyük hüquqi

məntiqlə və ədəbi texnika ilə təsvir etmişdir. Bununla o, öz həyatının analizini verməyə çalışır. Əsas mövqedə qorxu və mübarizə durur. Əlbəttə, bu məktub, belə götürüldükdə, heç bir ədəbi əsər sayılmır. Məktubda, ilk növbədə, iki vücudun bir-biri ilə yola gedə bilməməsi təsvir edilmişdir. Herman, Kafkanın atası impulsiv, qəzəbli, savadsız və buna baxmayaraq, cəmiyyətdə müəyyən qədər dirçələ bilən şəxsdir. Oğlu Frans yumşaq, atasının dövləti nəticəsində sərbəst olmayan, qorxaq və öz daxili aləminə qapılmış bir şəxsdir. Burada uşağın yüksək savada yiyələnməsi sayəsində adi ailələrdə baş verən konflikt izah olunur. Əgər uşaq bu arada ailədən aralanıb öz həyat yolu ilə gedə bilsəydi, hadisələr belə acınacaqlı olmazdı. O, gənc olduqda belə ailəsinin yanında yaşayır. Bundan başqa o, mənəvi cəhətdən atasından aralana bilmir və bütün həyatını atasına uyğunlaşdırmağa cəhd edir. O, atasına olan məhəbbət və nifrətdən azad ola bilmir. O, atasını həqiqətən sevirdi. Onun bacıları ataları ilə müxtəlif şəkildə rəftar edirlər, buna baxmayaraq onların ataları ilə münasibətdə konfliktləri qardaşlarınınkı ilə müqayisə oluna bilməz. Valli anası kimi atasının dediyi ilə otutub durur. Elli çox passiv bir uşaq idi. O, dolğun yaşa çatdıqdan sonra Kafka ailəsindən aralanır, öz ailəsini qurur və normal həyat tərzi keçirir. Ottla isə atası ilə münasibətdə daha qəddar mövqe tutsa da, sonra təslim olur. Kafkanın anası uşaqları ilə atası arasında qalmışdır. O, hər şeyi analar kimi insancasına həll etməyə çalışırdı. Onun ailədə baş verən proseslərin (əsasən münaqişələrin) axarına təsiri, demək olar ki, yox idi.

Bu məktub Kafkanın atasından uzaqlaşmaq üçün atdığı əsas addım sayırdı. Atası ilə olan problemlərə baxmayaraq, Kafka həmişə ona bağlı olmuş və onun rəğbətini qazanmağa çalışmışdır. Məktubdakı yazıda deyilir: “Mənim məktubum

sənin haqqındadır, burada mən yalnız sənin qarşında edə bilmədiyim şikayətlərimi verirəm".

Cəmi 3 roman müəllifi olan Frans Kafka *"Məhkəmə"* romanını 1914-15-ci illərdə yazıb. Romanda 30 yaşı tamam olan gün qeyri-müəyyən səbəbdən həbs olunan Yozef K.-nın başına gələnlərdən söhbət açılır. İlk dəfə 1925-ci ildə çap olunan bu əsər dünyanın müxtəlif ölkələrində, müxtəlif dillərdə çap olunub. Azərbaycanda isə yalnız 2012-ci ildə Vilayət Hacıyevin tərcüməsi ilə işıq üzü görüb.

Zavallı bəşər övladının dərkolunmaz sirli qüvvələr qarşısında acizliyi, həmişə onların qurbanına çevrilməsi ideyası "Məhkəmə" romanında öz əksini daha əyani şəkildə tapmışdır. Gündəliklərindən aydın görünür ki, tənqidçilərdən birinin "...daxili aləmin magik teatrı" adlandırdığı bu romanı yazarkən Kafka şübhə - tərəddüdlər, qeyri-müəyyənliklər, iztirablar içində boğulurmuş və görünür, elə bunun nəticəsidir ki, "Amerika" romanında obyektiv gerçəkliklə, real həyat hadisələri ilə bağlılıq, az da olsa, nəzərə çarpırdısa, burada mücərrədlik, simvolika, alleqoriya tam dominantlıq təşkil edir. Əslində, romanda təsvir olunan hadisələrin qeyri-adiliyi, necə deyərlər, buna münbit şərait yaradır. Otuz yaşı tamam olan günün səhəri, heç bir günah işlətməsə də, vicdanlı, işgüzar bank məmuru Yozef K. Həbs olunur və iş gedib məhkəməyə çıxır. Yozef günahsız olduğunu bilsə də, baş verənlərə soyuqqanlılıqla yanaşmağa çalışsa da, bu xəbərdən sonra nə yaşadığı evdə, nə də işdə rahatlıq tapa bilmir, daim bu gizli, qeyri-adi məhkəmə barədə düşünür. Naməlum məhkəmə çoxmərtəbəli bir binanın çardağında yerləşir, işçilərinin, eləcə də mühakimə etdikləri adamların sayı-hesabı yoxdur. Burada hamı günahkardır və heç kəsin günahı üzünə oxunmasa da, hamı cəzasını çəkməlidir. İlk günlər bu məhkəmədən lap tezliklə canını qurtaracağına əmin olan Yozef yalnız özünü müdafiə etməklə kifayətlənmir,

oradakıları, cəsarətlə tənqid edir, “qanun keşikçilərini” qanunsuzluqda günahlandırır. Lakin ilk günlərdən daxilində baş qaldırmış etiraz hissləri tədricən zəifləməyə başlayır və o da axırda bu müəmmalı məhkəmənin sehrinə düşür, sakit, rahat həyatı öz məcrasından çıxır. Əslində, Yozef oradakı əməkdaşlardan birinin dediyi kimi, “məhkəmənin ondan heç nə istəmədiyini, gələndə qəbul etdiyini, getmək istəyəndə də buraxdığını” bilir, lakin daxilində baş qaldırmış narahatçılıq, günah hissləri onu hətta çağırılmayanda da ora aparır, çünki bu gözəgörünməz məhkəmə artıq onun iradəsini, ağlını əlindən alıb, sehrləyib, öz əsirinə çevirib. Beləliklə də, əsərin sonuna qədər Yozefin nə günahın sahib olduğu bilinmir, ancaq bu üzüntülü get-gəllər, mənasız sual-cavablar, mənəvi-ruhani dünyasının təhqir olunması onu bədbinləşdirir, mübarizə aparmağın mənasızlığını başa düşür və sonda özünü, doğrudan da, günahkar hiss edir, məhkəmənin çıxardığı ölüm hökmünə tabe olur. Romanda təsvir olunan hadisələr, münasibətlər, sanki, belə bir ideyaya xidmət edir ki, insan gerçəkliyin ona qarşı hazırlamış olduğu dəhşətləri, müəmmalı qorxunu, anlaşılmazlığı dərk etmək və onlara qarşı mübarizə aparmaq iqtidarında deyil və bunların hamısı birləşərək onu məhvə aparır.

## Ədəbiyyat siyahısı


***Əsərləri***

Seçilmiş əsərləri - Bakı : Şərq-Qərb, 2006. - 360 s. - (Dünya Ədəbiyyatı).

Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2010. - 600 s. - (Müasir Dünya Ədəbiyyatı).

Atama məktub : hekayələr. - Bakı : Qanun Nəşriyyatı, 2015. - 263 s.

Gündəliklərdən // Ədəbiyyat qəzeti. - 2015. - 16 yanvar. - № 2/3. - S. 7.

Məhkəmə : roman. - Bakı : Qanun Nəşriyyatı, 2013. - 316 s.

Milenaya məktublar : Povest. - Bakı : Qanun Nəşriyyatı, 2016. - 279 s. : foto.

Seçmə hekayələr : yumor, satira. - Bakı : Altun Kitab, 2015. - 224 s. - (Hekayə ustaları).

Vəsiyyət : novella, pritça. - Bakı : Qanun Nəşriyyatı, 2014. - 191 s.

***Haqqında***

***Dövri mətbuatda***

**Qismət A.** İztirablı Kafka : alman yazıçısı Frans Kafkanın həyat və yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2017. - 23 sentyabr. - № 33. - S. 30.

**Qismət A.** Yaraşıqlı kişi yazıçılar // Ədəbiyyat qəzeti. - 2017. - 14 oktyabr. - № 36. - S. 24.

# Modernizmin və absurd nəslin banisi

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 44
Çapa imzalanmışdır: 16.06.2018
Tirajı:100
Pulsuz